Azərbaycan ədibləri



# SEYRAN SƏXAVƏT

Biblioqrafiya

SEYRAN SƏXAVƏT • Biblioqrafiya

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi

Azərbaycan Milli Kitabxanası

*Azərbaycan ədibləri*

# SEYRAN SƏXAVƏT

***(Seyran Əsgər oğlu Xanlarov)***

***Biblioqrafiya***

**Bakı – 2021**

**KBT**
**UOT**

**Tərtib edənlər:** **Xeyransa Abbasova**
**Gülbahar Misirova**

**Elmi redaktor:** **Kərim Tahirov,**
*Professor,*
*Əməkdar mədəniyyət işçisi*

**Redaktor:** **Elnur Nəciyev**

**Seyran Səxavət** (Seyran Əsgər oğlu Xanlarov): Biblioqrafiya / Tərt. ed. X.Abbasova, G.Misirova; elmi red. K.Tahirov; red.E.Nəciyev. – Bakı, 2021. – 176 s.

Azərbaycan Milli Kitabxanasının “Azərbaycanın ədibləri” seriyasından tərtib etdiyi “Seyran Səxavət” adlı biblioqrafik göstərici şair, nasir, tərcüməçi Seyran Səxavətə həsr edilmiş ilk biblioqrafiyadır. Göstəricidə yazıçının kitabları, dövri mətbuatda, dərsliklərdə, məcmuələrdə çap olunmuş əsərləri, həyat və yaradıcılığını əks etdirən materiallar əhatə olunmuşdur.

Biblioqrafiya ədəbiyyatşünas alimlər, tədqiqatçılar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN 978 9952 542 42 4

**© Azərbaycan Milli Kitabxanası, 2021**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi

Azərbaycan Milli Kitabxanası

*Азербайджанские писатели*

# СЕЙРАН САХАВАТ

***(Сейран Аскер оглу Ханларов)***

***Библиография***

**Баку – 2021**

**КBT**
**UOT**

**Составители:** **Хейранса Аббасова**
**Гюльбахар Мисирова**

**Научный редактор:** **Керим Тахиров,**
*Профессор,*
*Заслуженный работник культуры*

**Редактор:** **Е.Наджиев**

**Сейран Сахават** (Сейран Аскер оглу Ханларов): Библиография / Сост. Х.Аббасова, Г.Мисирова; науч.ред К.Тахиров; ред.Е.Наджиев. – Баку, 2021. – 176 с.

Разработанный Азербайджанской Национальной Библиотекой в серии «Азербайджанские писатели» библиографический указатель «Сейран Сахават» является первой библиографией, посвященной поэту, прозаику, переводчику Сейрану Сахавату. В указателе отражены книги писателя, его произведения в периодической печати, различных учебниках и сборниках, а также материалы о его жизни и творчестве.

Библиография предназначена для литературоведов, исследователей, библиотекарей-библиографов и широкого круга читателей.

ISBN 978 9952 542 42 4

**© Азербайджанская Национальная Библиотека, 2021**

## Göstərici haqqında

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının "Azərbaycanın ədibləri" seriyasından hazırladığı biblioqrafiya milli ədəbiyyatın tanınmış simalarından biri – şair, nasir, tərcüməçi, dramaturq Seyran Səxavətə həsr edilmişdir.

Seyran Səxavətin yaradıcılığı müasir Azərbaycan ədəbiyyatında özünəməxsus yer tutmuşdur. O əsərlərini insan həyatının, məişətinin, düşüncəsinin köklü problemlərinə həsr edərək fəlsəfi-psixoloji əsərlər yaratmışdır.

Ədib haqqında tərtib edilmiş ilk biblioqrafiyada filologiya üzrə fəlsəfə doktoru Xəyalə Əfəndiyevanın "Seçilmişin faciəsi" adlı məqaləsi, "Seyran Səxavətin həyat və yaradıcılığının əsas tarixləri", "Görkəmli şəxsiyyətlər Seyran Səxavət haqqında" bölmələri verilmişdir.

Biblioqrafiyada Seyran Səxavətin kitabları, dövri mətbuatda, məcmuələrdə çap olunmuş əsərləri, elmi-tənqidi və publisistik məqalələri, tərcümələri, habelə ədibin həyat və yaradıcılığını əks etdirən nəşrlər, dissertasiyalar, rus və başqa dillərdə çap olunmuş materiallar toplanmışdır.

Biblioqrafik göstəricidəki ədəbiyyat 1962-2021-ci illəri əhatə edir. Vəsaitdə materiallar bölmələr üzrə xronoloji qaydada qruplaşdırılmış, daxildə isə əlifba sırası gözlənilmişdir.

Biblioqrafiya ədəbiyyatşünas alimlər, tədqiqatçılar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Göstərici haqqında rəy və təkliflərini bildirən mütəxəssislərə və oxuculara əvvəlcədən minnətdarlığımızı bildirərək, təklif və rəylərini M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasına göndərmələrini xahiş edirik.

**Ünvan:** AZ-1000, Bakı şəh., Xaqani küç. 57.
**E-mail:** contact@anl.az;
**URL:**www.anl.az





## Об указателе

Библиография, подготовленная Азербайджанской Национальной Библиотекой в серии «Азербайджанские писатели», посвящена одному из известнейших деятелей национальной литературы – поэту, прозаику, переводчику, драматургу Сейрану Сахавату .

Творчество Сейрана Сахавата занимает особое место в современной азербайджанской литературе. Созданные им философско-психологические произведения отражают глубокие проблемы человеческой жизни, быта, взаимотношения между людьми, богатый спектр их чувств и мыслей.

В этой, первой библиографии, посвященной писателю, приводится статья доктора философии по филологии Хаялы Эфендиевой «Трагедия избранного», а также разделы «Основные даты жизни и творчества Сейрана Сахавата» и «Выдающиеся личности о Сейране Сахавате».

В библиографию вошли книги писателя, его произведения в периодической печати, научно-критические и публицистические статьи, переводы, а также материалы о его жизни и творчестве, диссертации, материалы на русском и других языках.

Отраженная в библиографическом указателе литература охватывает 1962-2021 годы. Материалы в библиографическом указателе приводятся в хронологическом порядке, внутри же разделов соблюдается алфавитный порядок.

Библиография предназначена для литературоведов, исследователей, библиотекарей-библиографов и широкого круга читателей. .

Заранее благодарим читателей за предложения и замечания и просим направлять их в Азербайджанскую Национальную Библиотеку им. М.Ф. Ахундова.

**Адрес:** AZ-1000, гор.Баку, ул. Хагани, 57.
**E-mail:** contact@anl.az;
**URL:**www.anl.az





## Seyran Səxavətin həyat və yaradıcılığının əsas tarixləri

***Xanlarov Seyran Əsgər oğlu 1946-cı il mart ayının 23-də Füzuli rayonunun Yuxarı Yağlıvənd kəndində anadan olmuşdur.***

**1952** – Yağlıvənd kənd orta məktəbində birinci sinfə getmişdir.

**1962** – Yağlıvənd kənd orta məktəbini bitirmişdir;
– “Qızıl Araz” qəzetində “İki arzu” adlı şeiri çap olunmuşdur.

**1962-1964** – X.Natəvan adına Füzuli şəhər məktəbində direktorun köməkçisi vəzifəsində işləmişdir.

**1964** – S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) şərqşünaslıq fakültəsinə daxil olmuşdur.

**1970** – Azərbaycan Dövlət Universitetini bitirmişdir;
– “Adalar” adlı ilk şeirlər kitabı “Gənclik” nəşriyyatında çap olunmuşdur.

**1970- 1972** – Sovet Ordusu sıralarında əsgəri xidmət zamanı SSRİ Müdafiə Nazirliyində tərcüməçi işləmişdir.

**1974-1976** – “Ədəbiyyat və incəsənət” qəzeti redaksiyasında xüsusi müxbir, ədəbi işçi kimi çalışmışdır;
– İranda tərcüməçi işləmişdir.

**1976-1981** – Yenidən Bakıda “Ədəbiyyat və incəsənət” qəzeti redaksiyasında ədəbi işçi kimi fəaliyyət göstərmişdir.

**1977** – “Mənim planetim” adlı ikinci şeirlər kitabı “Gənclik” nəşriyyatında çap olunmuşdur.

**1979** – “Hamı elə bilirdi...” adlı hekayələr və povest kitabı çapdan çıxmışdır.

**1980** – Azərbaycan Yazıçılar Birliyinə üzv seçilmişdir.

**1981-1991** – “Ulduz” jurnalı redaksiyasında Nəsr şöbəsinin müdiri işləmişdir.

**1985** – “Daş evlər” romanı “Gənclik” nəşriyyatında çapdan çıxmışdır.

**1986** – A.Ebnoidzenin “İki ay kənddə və ya imeretiyasayağı evlənmə” romanını Azərbaycan dilinə tərcümə etmişdir.

**1987** – “Dar köynək” povestlər kitabı “Yazıçı” nəşriyyatında çap olunmuşdur;
– “Qızıl teşt” povesti “Ulduz” jurnalında dərc olunmuşdur.

**1988** – “Qızıl teşt” pyesi Azərbaycan Akademik Milli Dram Teatrında tamaşaya qoyulmuşdur.

**1989** – “Büst” pyesi Lənkəran Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur;





– “Daş evlər” romanı “Gənclik” nəşriyyatında çapdan çıxmışdır;
– İspaniyada yaradıcılıq ezamiyyətində olmuşdur.

**1990** – Londonda və Parisdə səfərdə olmuşdur;
– “Qapıların o üzündə qalan dünya” adlı əsəri Füzuli Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur.

**1999** – “Qızıl teşt” povest və hekayələr kitabı “Çaşıoğlu” nəşriyyatında nəşr olunmuşdur.

**2002** – “Nekroloq” romanı Azərbaycan Yazıçılar Birliyinin Y.Səmədoğlu adına “İlin ən yaxşı romanı” mükafatına layiq görülmüşdür.

**2003** – “Nekroloq” romanı “Mütərcim” nəşriyyatında çap olunmuşdur;
– “Palıd toxumu” romanı “Qanun” nəşriyyatında çapdan çıxmışdır.

**2009** – “Bəhanə” adlı kitabı “Vektor” nəşriyyatında çap olunmuşdur;
– “Yəhudi əlifbası” roman və hekayələr kitabı “Qanun” nəşriyyatında çap olunmuşdur.

**2010** – “Qaçhaqaç” avtobioqrafik romanı “Qanun” nəşriyyatında nəşr olunmuşdur. (Kitab 1)

**2015** – “Seçilməmiş əsərlər”i “Renessans-A” nəşriyyatında çap olunmuşdur.

**2016** – Xəyalə Əfəndiyeva "Seyran Səxavətin bədii nəsrində sosial-psixoloji və mənəvi-əxlaqi axtarışlar" adlı dissertasiyanı müdafiə etmişdir.

**2017** – "Qaçhaqaç" romanı "Vektor Beynəlxalq Nəşrlər Evi" tərəfindən çap olunmuşdur. (Kitab 2)

**2019** – "Kenquru" povest və hekayələr kitabı "Mütərcim" nəşriyyatında çapdan çıxmışdır.

**2020** – Azərbaycan Milli Kitabxanasının nəşr etdiyi "Əlamətdar və tarixi günlər təqvimi – 2021" adlı növbəti buraxılışında "Seyran Səxavət – 75 illiyi" bölməsi verilmişdir.

**2021** – Mart ayının 23-də 75 illik yubleyi qeyd edilmişdir;
– Azərbaycan Yazıçılar Birliyi yubileyi münasibətilə şairə təbrik məktubu göndərmişdir;
– M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası "Azərbaycan ədibləri" seriyasından "Seyran Səxavət" biblioqrafiyasını nəşr etdirmişdir.





## Основные даты жизни и творчества Сейрана Сахавата

***Ханларов Сейран Аскер оглу родился 23 марта 1946 года в селе Юхары Яглывенд Физулинского района.***

**1952** – Пошел в первый класс средней школы в селе Яглывенд.

**1962** – Окончил среднюю школу в селе Яглывенд;
– В газете «Гызыл Араз» было опубликовано перве стихотворение «Две мечты».

**1962-1964** – Работал помощником директора школе им. Х.Натаван города Физули.

**1964** – Поступил на факультет востоковедения Азербайджанского Государственного Университета им. С.М.Кирова (ныне БГУ)

**1970** – Окончил Азербайджанский Государственный Университет;
– В издательстве «Гянджлик» была опубликована перая книга стихов «Острова».

**1970- 1972** – Во время службы в рядах Вооруженных Сил СССР работал переводчиком в Министерстве Обороны СССР.

**1974-1976** – Работал специальным корреспондентом и литературным сотрудником в редакции газеты «Адебиййат ве инджасанат»;
– Работал в Иране переводчиком.

**1976-1981** – Возобновил работу литературного сотрудника в редакции газеты «Адебиййат ве инджасанат».

**1977** – В издательстве «Гянджлик» вышла в свет вторая книга стихов «Моя планета».

**1979** – Опубликована книга рассказов и повестей «Все так и думали».

**1980** – Был принят в Союз Писателей Азербайджана.

**1981-1991** – Работал заведующим издательским отделом в редакции журнала «Улдуз» .

**1985** – В издательстве «Гянджлик» был опубликован роман «Каменные дома».

**1986** – Перевел на азербайджанский язык роман А.Эбаноидзе «Два месяца в деревне или брак по имеретински».

**1987** – В издательстве «Язычы» опубликована книга повестей “Тесная рубашка»;
– Повесть «Золотая чаша» была опубликована в журнале «Улдуз».





**1988** – Пьеса «Золотая чаша» была поставлена на сцене Азербайджанского Национального Академического Театра.

**1989** – Пьеса «Бюст» поставлена на сцене Ленкоранского Государственного Драматического Театра;
– Роман «Каменные дома» опубликован в издательстве «Гянджлик»;
– Находился в Испании в творческой командировке.

**1990** – Был в Лондоне и Париже;
– На сцене Физулинского Государственного Драматического Театра поставлена пьеса «Мир по ту сторону дверей».

**1999** –В издательстве «Чашыоглу» опубликована книга повестей и рассказов «Золотая чаша».

**2002** – Роман «Некролог» был удостоен в Союзе Писателей Азербайджана премии им. Ю.Самедоглу «Лучший роман года»

**2003** – Роман «Некролог» опубликован в издательстве «Мутарджим»;
– Роман «Дубовое семя» опубликован в издательстве «Ганун».

**2009** – Книга «Повод» опубликована в издательстве «Вектор»;
– Книга «Еврейский алфавит: роман и рассказы» опубликована в издательстве “Ганун»

**2010** – Автобиографический роман «Гачхагач» опубликован в издательстве «Ганун» (Книга 1)

**2015** – Книга «Неизбранные произведения» опубликованы в издательстве «Ренессанс-А».

**2016** – Хаяла Эфендиева защитила диссертацию на тему «Социально-психологические и культурно-нравственные искания в художественном творчестве Сейрана Сахавата».

**2017** – Роман «Гачхагач» опубликован в международном издательском доме «Вектор». (Книга 2)

**2019** – Книга повестей и рассказов «Кенгуру» опубликована в издательстве «Мутарджим».

**2020** – В очередном выпуске «Календаря знаменательных и памятных дат - 2021» писателю посвящен раздел «Сейран Сахават-75».

**2021** – 23 марта писатель отметил 75-летний юбилей;
– Союз Писателей Азербайджана направил поэту поздравительное письмо в связи с 75-летни юбилеем;
– В Национальной Библиотеке им. М.Ф.Ахундова составлена библиография «Сейран Сахават» из серии «Азербайджанские писатели».





## Seçilmişin faciəsi

*Məni məndən savayı kimsə anlamayacaq...*
**Vaqif Sultanlı**

Dahilər heç vaxt doğru zamanda və doğru məkanda doğulmur... Dahilər həmişə öz mühitinin dəyəri bilinməyən, zamanında layiqli dəyəri verilməyən, qiymətləndirilməyən, mövqeyi doğru anlaşılmayan, mühitin və zamanın yetim övladları olublar...

Əgər Arximed öz məşhur qanununu tapmasaydı, mütləq onu lap bir neçə əsr sonra da olsa, kimsə kəşf edəcəkdi. Və ya Nikola Teslanın kəşfləri... yaxud Çedvik 1919-cu ildə neytronu kəşf etməsəydi, mütləq bir neçə il sonra həmin elementar hissəcik başqa bir fizik tərəfindən tapılacaqdı. Lakin "İliada"nı Homer yazmasaydı, başqa heç kim yaza bilməzdi. "Otello"ya Şekspirdən başqa heç kim o əzəməti verə bilməzdi. "Nibelunqlar" və "Koroğlu" dastanını... eləcə də Aristotelin "Ritorika"sını, Mirzə Cəlilin "Anamın kitabı"nı, Üzeyir bəyin "Arşın mal alan"ını, Cerom Selincerin "Çovdarlıqda uçurumdan qoruyan"ı yalnız öz müəllifi yarada bilərdi. Ya bir düşünün... bu cür əsərlər olmasaydı, dünya mədəniyyəti son dərəcə yoxsul və maraqsız olardı. Deməli, dahilik ifadəsi, dahi anlayışı təkcə fizik, kimyaçı, bioloq, fizioloqa aid deyil, bütün Sənət – ədəbiyyat, fəlsəfə, musiqi, rəngkarlıq sahəsində şedevr yaradanlara da aid olmalıdır.

Dahini zaman yetirmir, dahi öz zamanı ilə izah oluna bilməz deyirdi, – Otto Veyninger. O Otto Veyninger ki, 23 yaşında "Cins və xarakter" kimi möhtəşəm bir fəlsəfi şedevr yaratdı. 25 yaşında isə ona layiq olduğu dəyəri verə bilməyən bir mühitdə yaşamaqdan üz çevirdi – intihar etdi...

Kitaba and içən, fəqət Kitabla müxalifətdə olan, Kitabı anlaya bilməyən bir toplumun Seçilmiş insanlara dəyər verməməsinin acı nəticələrindən biri də bu... İnsanın yaşadığı, içində bulunduğu bir cəmiyyətdən küsməyindən – milyonların içində öz içinə qapanıb yaşadığı tənhalığından acı nə ola bilər ki...

Cəmiyyət bir çəmənliyə bənzəyirsə, Seçilmiş övladlar o cəmiyyətin ən gözəl, ən ətirli çiçəkləridir... Gertsen yazırdı ki, qar, yağış yağanda bitkiyə, onun budaqlarına heç nə olmur, bütün zərbələr qönçəsinə, çiçəyinə dəyir. Qabiliyyətsizlər, isdedadsızlar, məddahlar həmişə yaltaqlıqla, riyakarlıqla, özlərinə məxsus həyasızlıqla cəmiyyətdə çox yaxşı üstün mövqe və vəzifə tutur, ən yaxşı həyat yaşayır, amma Modilyani kimi, Motsart kimi, Şubert kimi, Mirzə Ələkbər Sabir kimi, Məhəmməd Hadi kimi şərəfi hər şeydən uca tutanlar isə ehtiyac ucbatından dünyanı vaxtsız tərk edirlər... yaşadıqları da ömür olmur ki... əzab olur... ağrı olur...

Dahilər heç vaxt yerində və zamanında doğulmur... hələ azçox bəxti gətirən Üzeyir bəy hansı bir başqa ölkədə doğulsaydı, heç şübhəsiz ki, indi olduğundan 100 dəfə artıq şöhrətli olardı. Amma bu qədər işıqlı, bu qədər zəngin vergili bir düha harda, harda – diktatorlar və kölələlər diyarında doğulduğu üçün başı olmazın bəlalar çəkdi. Və təsadüfən Sibir tayqalarında donmaqdan xilas oldu... Yaxud adı, poeziyası Avropada dillər əzbəri olan Mirzə Şəfi Almaniyada aldığı dəyəri öz doğma yurdunda ala bilməzdimi?!...

Seçilmişlər... Seçkin İnsanlar – İlahi nurdan pay almış Sənətkarlar həm də öz zamanlarının yetim övladlarıdır. Bu ömrü yaşamaq həm də əzabdır və onlar bu taledən qaçmağa çalışır, əslində. Amma nə qədər qaçırsa, yenə də bu işığa, bu taleyə doğru gedir. Qaça bilmədiyi tale, işıq həqiqi ürək, mənəviyyat sahibini ömür həsr etdiyi özünütəsdiq sahəsinə gətirib çıxarır. Sənətkar ömrü beləcə başlayır. Bu ömür ona dünyanı hamının





gördüyü kimi görməyə imkan vermir. Daha duyarlı olmaq daha çox əzabla yaşamaq deməkdir.

Nə qədər barışmasa da, bu, onun taleyidir, ömrüdür. Bu ömrün rahatlığı, dincliyi yoxdur, bu ömrün cəfası səfasından çoxdur, hər anı, hər dəqiqəsi dərd, əzab, mühitlə vuruş, döyüşdür. Dünyanın havasına, suyuna, daşına, torpağına, quşuna, böcəyinə, buluduna, qaranlığına... sənətkar gözü ilə baxmaqdır. Və baxıb hər şeyi o işığın durultduğu, aydınlaşdırdığı kimi görməkdir. Hamı kimi görməməkdir... Göz böyüyə-böyüyə tanış dünyanı görmək də ağırdır! Hamı kimi olmağa – dağda dağı, daşda daşı görməyə nə var ki? Hamının görmədiyini görməkdir Sənətkar olmaq... Belə insanlar nə hər hansı məkana, nə də yaşadıqları zamana sığışmır, mühitlə heç cür barışa bilmirlər... Bu barışmazlıq da bir növ ömür payıdır...

Lev Tolstoy "bədii təxəyyül xəstə təxəyyüldür" deyirdi. Bu mənada, bəxtinə "Tanrı vergisi" düşən seçilmiş insanların – şairlərin, yazıçıların, rəssamların və s. hamısı "xəstədir", bu dünyanın adamı deyil. Bəlkə də, əsl sənətkarlıq – seçkinlik elə bu dünyada o "ilahi xəstəliyin" qulu olmaqdı. Sənətkar ilahi vəhyin pıçıltılarını çatdırmalıdır, gözəl bir əsər ortaya qoymalıdır ki, beynindəki o iltihab təmizlənsin. Seçilmiş olmaq hər dəqiqə bu "ilahi xəstəlikdən" sağalmaqdan qorxa-qorxa, öz canındakı o xəstəliyi sevə-sevə, əzizləyə-əzizləyə bəsləyib becərtməkdir, bəlkə də...

Seyran Səxavət bəxtinə "Tanrı vergisi" düşən, ilahi bağlılıqları, Tanrını dərk etməyə açar olacaq sirləri insanlara pıçıldayan vasitəçi, Halal sözün halal övladıdır.

Sənət, ədəbiyyat, poeziya zəngin bir dünyadır. Seyran Səxavət şeirlərini oxuduqca bu poeziyanın nə qədər böyük diqqət və məhəbbətlə yaradıldığını duyursan. Şair taleyini yaşamaq nə qədər əzablı olsa da, müəyyən mənada insana bədbəxtlik gətirsə də, bu ömrün "bədbəxtliyinin" özündə də bir doğmalıq var. Qəlbinin dərinliklərində O, bədbəxt müdrikin xoşbəxt səfehdən

daha xoşbəxt olduğunu hiss edir. Seyran Səxavəti oxuduqca anlayırsan ki, bu kitabdakı heç bir əsəri masa arxasında sakitcə oturub yazmaq olmaz.

Marina Svetayeva doğru deyir: "Əsl sənət əsəri böyük gərilmənin məhsuludur. İstedad nə qədər yazmağı yox, nə qədər "gərilməyi bacarmaq"dır. Əgər şeiri "gərilmədən" rahatca yazsan, cild-cild kitabların olacaq, lakin yazdıqların heç bir poeziya nümunəsinə çevrilə bilməyəcək. Şeiri şeir edən də bu "gərilmə"dir."

Seyran Səxavət sadəliyin böyüklüyünü, adiliyin qeyri-adiliyini yazan, hər kəsin gördüyü, ancaq heç kəsin duymadığını duyan sənətkardır.

O, sadəcə şair, nasir, dramaturq deyil. Bu cür insanlara şeirin, nəsrin, bütövlükdə ədəbiyyatın hadisəsi kimi baxmamalıyıq – Seyran Səxavət miqyaslı adamlar – sözün belindən gələn adamlar belə dar təsnifatlara sığmaz. Belə adamlar Dünya Ruhunun bütün Bəşəriyyət üçün ümumi olan Mənəviyyat tarixinin bir hadisəsidir.

Seçilmək, Seçilmişlərdən olmaq... Sənətkar taleyi yaşamaq... əzablar ilə gözəldir, ağrılar ilə doğmadır. Bu ömrün ağrısını, əzabını, sevincini, sevgisini qələmə almaq bu taleyi sözə çevirməkdə bir ayrı gözəllikdir. Milan Kundera yazır ki, hər bir sənətkar özünə avtobioqrafiya yazmalıdır. Yazmalıdır ki, onun örnək olası həyat yolunu adi insanlar oxuya, öyrənə bilsinlər. Yazmalıdır ki, nəsillərin həyatında, tərbiyəsində o avtobioqrafik məzmunlu əsərlərin də Sənətkarın öz şəxsiyyəti və bütün yaradıcılığı qədər böyük əhəmiyyəti olur.

Həqiqətən də, sənətkarın yetişdiyi mühiti öyrənmək, müşahidə etmək, onun hansı şəraitdə yaşadığı, nələrin uğrunda nələrdən keçdiyini bilmək, bütövlükdə adi bir insanı şəxsiyyət kimi yetirən bir ortamı dərk və təhlil etmək olduqca mühüm bir məqamdır. Əgər oxucu sənətkarın avtobioqrafiyası ilə tanışdırsa, onun bir çox əsərlərində bu avtobioqrafiyadan irəli gələn





məqamların bu və digər formada açıldığını və bədii həllini tapdığını görmüş olacaq.

Sergey Yesenin yazırdı: "Tərcümeyi-hal yazmağa ehtiyac hiss etmirəm, çünki ömür yolum şeirlərimdir". Sergey Yesenin dediyi kimi, əgər Seyran Səxavət "Qaçhaqaç", "Daş evlər", "Ağrı", "Persona non Qrata" və s. kimi avtobioqrafik məzmunlu əsərləri yazmasaydı belə, təkcə onun şeir yaradıcılığı müəllif haqqında tərcümeyi-halda yazılanlardan daha çox şey demək gücündə idi...

Seyran Səxavətin yaradıcılığı müasir ədəbi tənqidi daim diqqətlə izləmişdir. Əsərlərində insan həyatının, məişətinin, düşüncəsinin köklü problemlərinə müraciət etməsi, dərin humanizmi, realizmi, fəlsəfi-psixoloji təhlil genişliyi ilə çağdaş ədəbi nümunələr arasında özünəməxsus yer tutur. Seyran Səxavətin istedadının orijinallığı, fərqli yazı manerası, əsərlərindəki əlvan obrazlar sistemi, şərti metaforik ifadə tərzi geniş oxucu kütləsinin və ədəbi-elmi ictimaiyyətin diqqətini daim özünə cəlb etmişdir.

Onun yaradıcılığı çoxjanrlı və çoxşaxəlidir. Seyran Səxavət şair, nasir, publisist və dramaturq kimi geniş auditoriyası olan bir sənətkardır.

Seyran Səxavət dilimizin gözəlliyini, zənginliyini yaradıcılığında ehtiva edən, xalq ruhuna yaxın, Tanrıya sevgiyə və bağlılığa, insanın özünüdərkinə, mənən kamilləşməsinə həsr olunan, ümumbəşəri ideyalara söykənən, dərin məzmunlu, düşündürücü şeirlərin, romanların, povestlərin və hekayələrin müəllifidir. O, dünyaya özünəməxsus baxışı olan yaradıcı şəxsiyyət, Sözə böyük həssaslıq və ehtiramla yanaşan, Haqqı – Sözü yerində və zamanında deməyi bacaran cəsarətli qələm sahibidir.

Seyran Səxavət – Xanlarov Seyran Əsgər oğlu 1946-cı ildə Füzuli rayonunun Yuxarı Yağlıvənd kəndində ziyalı ailəsində doğulmuşdur. Orta məktəbi həmin kənddə bitirdikdən sonra 1962-1964-cü illərdə Natəvan adına Füzuli şəhər məktəbində direktor köməkçisi vəzifəsində çalışmışdır. 1964-1970-ci illərdə

Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsində ali təhsil almış, ordu sıralarında əsgəri xidmət zamanı SSRİ Müdafiə Nazirliyində tərcüməçi işləmişdir (1970-1972). Hərbi xidməti başa vurduqdan sonra "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında xüsusi müxbir, ədəbi işçi kimi fəaliyyət göstərmişdir. 1974-1976-cı illərdə göndərişlə İranda tərcüməçi işləmişdir. 1976-cı ildə Bakıya qayıdan yazıçı 1981-ci ilədək "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında ədəbi işçi kimi fəaliyyət göstərmişdir. 1981-1991-ci illərdə "Ulduz" jurnalı redaksiyasında nəsr şöbəsinin müdiri vəzifəsində çalışmışdır.

İlk bədii yazısı 1962-ci ildə "Qızıl Araz" qəzetində çap olunan Seyran Səxavət şeir, hekayə və publisistik yazıları ilə bugünə qədər mətbuat səhifələrində müntəzəm çıxış edir. Şair, filologiya elmləri doktoru Qasım Qasımzadə onun istedadını yüksək qiymətləndirmiş, "Azərbaycan gəncləri" qəzetində o illər üçün dəbdə olan "Uğur olsun" yazıb gənc şairə uğurlar arzulamışdır. Hələ ADU-nun şərqşünaslıq fakültəsinin V kursunda oxuyarkən, 1970-ci ildə gənc şairin "Adalar" adlı ilk şeirlər kitabı çap olunur və ədəbi ictimaiyyət tərəfindən maraqla qarşılanır. 1977-ci ildə isə şairin "Mənim planetim" adlı ikinci şeirlər kitabı işıq üzü görmüşdür. Çap olunduğu gündən həmin kitablar ədəbi tənqid və oxucular tərəfindən poeziyada yeni nəfəs, yeni söz kimi qarşılanmışdır. Doğrudur, bütün zamanlarda olduğu kimi tənqidin mühafizəkar qolu bu şeirləri birmənalı qarşılamamış, kitabda yer alan şeirlərin çoxunda, xüsusilə də adı başlığa çıxarılmış "Mənim subay planetim"də mücərrədçilik, qeyri-müəyyənlik elementləri axtarmağa başlamışdı. "60-cı illərdə Rəsul Rzaya, Əli Kərimə yönəlmiş əqrəb neştərləri on ildən sonra gənc və istedadlı qələm sahibinə yönəlmişdi". "Mənim subay planetim" şeirinin obrazlı deyim tərzi, metaforik düşüncə aləmi, ənənəvilikdən uzaq üslubu, orijinal bənzətmələri "ənənəçilər"in mövqeyinə və bədii zövqünə uyğun gəlməmişdir. Halbuki, sırf sənət baxımından şeirin poetik toxuması elə ilmələr və naxışlarla işlənib ki, onun





sehrini və cazibəsini yalnız səviyyəli və estetik zövqü formalaşmış oxucu duyub qiymətləndirə bilərdi. Şeirin məzmunundan nəticə olaraq çıxan fikir belə idi: nə qədər ki, planetin ayrı-ayrı otaqlarında (qitələrində) dava-qırğın davam edir, nə qədər ki, bir otağında dava qurtarmamış, o birində başlayır, oraya gəlin gətirmək olmaz".

Bu gərdişin davam edəcəyi, qırğınların zəncirvari reaksiyaya çevriləcəyi təqdirdə lirik qəhrəman dünyanın gələcəyi üçün qorxu-vahimə hissi keçirib bəyan edir:

Doluşdular qəlbimə,
Ürpəşdi ətim.
Qorxuram cavan ölə
Toysuz ölə...
Mənim subay planetim!!!

Şeirdə dünya obrazlı şəkildə qavranılır və təqdim olunurdu. Məsələn, planetə müraciət edən şairin lirik qəhrəmanı onun altıotaqlı evin (altı qitənin), dörd çarhovuzun (dörd okeanın), "Qarabağ" markalı pianinonun sahibi kimi təqdim edirdi. Çaylar, şəlalələr onun çalıb-çağıran musiqisidir. Bütün bu epitet və bənzətmələr şeirin bədii enerjisinin gücündən və müəllifin orijinal düşüncəsindən xəbər verirdi. Bu şeirlərin səciyyəvi cəhəti bu idi ki, haqqında çox yazılmış hadisə və situasiyalarda Seyran yeni keyfiyyətlər axtarıb tapır, sanki çox yaxşı tanıdığımız predmetləri bizə tamamilə fərqli rakursdan, yeni bir işıqda, həm də uğurlu təqdim edir.

Dənizdə yaşayar bütün ömrünü,
Öləndə sahildə ölər gəmilər.

Və ya:

İnsanlar anadan doğulubdular,
Yollar da insanın ayaqlarından.

Yaxud:

Quşlar tüklənirsə, pərvazlanacaq,
Yollar "tüklənirsə" ölür, deməli...

Müxtəlif şeirlərdən seçdiyimiz bu misralardakı müşahidələrin dərinliyi, obrazların konkretliyi, təşbehlərin aydınlığı və təbiiliyi, şeir dilinin rəvanlılığı, incə lirizm və digər kefiyyətlər bu poetik nümunələrin oxucu qəlbinə yol tapmasına zəmin hazırlayır.

Qeyd edək ki, ilk kitablarında gənc müəllifin məhəbbət mövzusunda yazdığı bir-birindən məzmunlu şeirləri də geniş oxucu auditoriyasını ahənrüba (maqnit – red.) kimi dərhal özünə çəkdi. Seyran Səxavətin "Azərbaycan" jurnalının 1968-ci ildəki 10-cu sayında dərc edilmiş "İlk məhəbbət – son məhəbbət" şeirində oxucu ənənəvi və dünyanın özü qədər qədim olan bir mövzuya – məhəbbət mövzusuna yeni yanaşmanın şahidi oldu.

Sən nə istəyirdin, nələr itirdin,
Qorxma kül olmaqdan, yan məhəbbətim...
Sən mənim başıma nələr gətirdin
Ay ilk məhəbbətim, son məhəbbətim...

Sevmək də elə doğulmaq kimidi. İnsan bircə dəfə bu duyğunu bütün varlığıyla, ruhuyla yaşaya bilir. İlk məhəbbət elə son məhəbbətdir. İlk məhəbbətin odunda, alovunda qovrulub, qarsıyıb külə dönənlər ikinci dəfə eyni hərarət və atəşlə yana bilmirlər. Şeirin sonrakı bəndlərində qəlbin bu ali və ülvi duyğusu misralara səpələnir, ruhumuzu təzələyir, bizi daxilən təmizləyib təlatümə gətirir, ikinci nəfəslə yaşamağa məcbur edir. Şeirdə poetik kəşf səviyyəsində tapılmış söz və ifadələr poeziyaya istedadlı bir şairin gəlişindən xəbər verir:





Sən bir soyuq ulduz, mən gözləri nəm,
Eybi yox, mənim üçün həmişə varsan,
Sıxma ürəyimi, ürək cəhənnəm,
Axı sən ordasan, sən sıxılarsan...

Gənc müəllifin sevən qəlbinin çırpıntıları olan bu misralar məhəbbətdə təmannasızlığa və fədakarlığa qoyulmuş minatür abidə təsiri bağışlayır. Qeyd edək ki, yaradıcılığının ilk çağlarında "İki arzu", "Utancaq məhəbbət", "Alma oğrusu", "Bizim arx", "Ürək", "Sevirəm", "İlk məhəbbət, son məhəbbət", "Balam nə vaxt iməklər" və s. kimi şeirlərində ülvi duyğulardan, məhəbbətdən yazsa da, gənc müəllif daha çox sosial-ictimai mövzulara diqqət yönəldir, mənəvi çatışmazlıqları, eybəcərliyi, şəri, haqsızlığı, zülmü, ədalətsizliyi, yalanı əzməyə, sındırmağa, şərəfsizliyi insanlığın yolunda süpürüb atmağa "girəvə (fürsət – red.) axtardığını" yazırdı.

Yersiz-yersiz tikilmiş
Evləri uçurtmağa,
Kimlərisə, hardansa
Harasa köçürtməyə
Girəvə axtarıram.
Qanla keflənənləri
Kir kimi içirtməyə
Girəvə axtarıram.
Mən öz doğma xalqımın
Ürəyində qalmağa,
Araz adlı çay üstdən
Böyük körpü salmağa,
Əliqabarlıların
Yekə qarınlılardan
İntiqamın almağa
Girəvə axtarıram.

Çoxlarının qəlbində
Yaşayan fikirləri,
Bir qarışqa yükünü
Daşıyan fikirləri
Uçurdub, sökdürməyə
Girəvə axtarıram.
Bax, o gözəl Şuşanı
Yenidən tikdirməyə
Girəvə axtarıram.
Ruhsuzların ruhunu
Çeynəməyə, soymağa
Koroğlunun, Babəkin
Heykəlini qoymağa
Girəvə axtarıram.
İnsanlar arasında
Qoy olmasın qul, ağa
Mən Gəncə şəhərinin
Adını qaytarmağa
Girəvə axtarıram.
Hər amallı niyyətə,
Bütün bəşəriyyətə,
Ürəyimi verməyə,
Bu "Girəvə" şeirimi
Bir gün çap etdirməyə
Girəvə axtarıram!

1962

Qəribə burasıdır ki, artıq indi ədəbi mühitdə öz sözünü demiş, imzasını təsdiqləmiş, özünəməxsus üslubu və mövqeyi ilə çoxsaylı oxucuların sevimli yazarına çevrilən Seyran Səxavət hələ 1962-ci ildə yeniyetmə çağlarında "Girəvə axtarıram"ı yazarkən yəqin heç ağlına gətirmirdi ki, bu şeirlə, əslində, özünün gələcək sənət yolunun bədii perspektivini – eskizlərini





cızır, onun ən mötəbər poetik sənədlərindən birini işləyib hazırlayır.

Sənətə şeirlə gələn, ilk qələm təcrübələrində bədii müşahidə və araşdırmasını lirikanın, rübabi duyğu və hisslərin işığında aparan gənc müəllifin yaradıcılığında poeziya xətti nə qədər uğurlu alınsa da, Seyran Səxavətin yaradıcılıq stixiyasını və bu stixiyaya xas orjinallığı, bənzərsizliyi üzə çıxaran məhz onun zəngin ədəbi ənənələrinə söykənən nəsr yaradıcılığı olmuşdur.

Çağdaş Azərbaycan poeziyasının görkəmli simalarından olan, əsərləri ilə ədəbiyyatımıza yeni ruh, yeni nəfəs, yeni obrazlar sistemi gətirən Seyran Səxavət haqqında ədibin müasiri, yaxın dostu Ramiz Rövşən müsahibələrinin birində belə deyir: "Mən tam səmimiyyətlə deyirəm ki, Seyran mənim, Sabir Rüstəmxanlının və bir çox yaradıcı dostlarımızın, yaşıdlarımızın gözünü qorxudan bir şair idi. Amma xoşbəxtlikdən o sonra şeirdən nəsrə keçdi. Bu barədə mən bir dəfə demişəm ki, Şairlərin xoşbəxtliyindən, nasirlərin bədbəxtliyindən Seyran Səxavət şeirdən nəsrə keçdi".

Müsahibələrinin birində Seyran müəllimə sual verirlər: "Şeirdən nəsrə keçid sizin üçün çətin olmadı ki?" O zaman Seyran Səxavət bu suala çox orijinal bir cavab vermişdi: "Əgər mən inşaat mühəndisliyindən ayrılıb nəsr sahəsinə gəlmiş olsaydım, bu, əlbəttə, çətin olardı, amma indi niyə çətin olsun ki? Şeirin də, nəsrin də, dramaturgiyanın da, publisistikanın da materialı, özülü sözdür. Bu baxımdan keçidlərdə təəccüblü bir şey yoxdur. Hansı sahədə özünü tapsan da, yenə tikinti materialın – xammalın söz olacaq. Buna görə də şeirdən nəsrə keçərkən mən heç bir çətinlik hiss etmədim. Mənim üçün şeirdən nəsrə keçmək şeir yazanda bir benddən başqa bəndə keçmək kimi bir şeydir. 1970-ci ilə qədər şeir yazmışam. Amma əslinə qalanda yaradıcılığa nəsrlə başlamışam. Çünki, şeir yazdığım zamanlarda çox yeniyetmə idim və bu yazdıqlarım yaradıcılıq

deyildi. Sadəcə ədəbiyyat aləmində vurnuxurdum. VIII sinifdə oxuyanda "İki arzu" adlı ilk şeirim rayonda "Qızıl Araz" qəzetində dərc olundu. Universitetin şərqşünaslıq fakültəsində oxuduğum illərdə də şeirlər yazdım. V kursda kitabım çap olundu. Yerə-göyə, fakültəyə, universitetə sığmırdım. Sonra əsgər getdim, zabit kimi Bişkekdə xidmət edir, gün ərzində əfqan və rus hərbçiləri arasında 6 saatadək sinxron tərcümə edirdim. 1973-cü ildə hərbi xidmətdən qayıdıb "Ədəbiyyat və incəsənət" qəzetində işləsəm də, heç nə yazmırdım. 1974-cü ildə İranın İsfahan şəhərinə tərcüməçi göndərdilər, 1 il sonra elə İsfahanda işlədiyim ərəfədə nəsr yazmağa başladım".

"1975-ci ilə qədər heç nə yazmadım. Düşünürəm ki, bu müddət ərzində susmağımla da ədəbiyyata xidmət etmiş oldum. Gözəl ədəbi nümunə yarada bilmirsənsə, kənara çəkilmək də bir növ xidmətdir. Ürəyincə olmayan şeyləri yazıb çap etdirməkdənsə, susmağı bacarmaq özü də yazmaq qədər istedad istəyir".

Əslində bu cür düşünmək və məsələyə bu mövqedən yanaşmaq özü də böyüklük istəyir adamdan...

"Seyran Səxavətin bədii nəsrində sosial-psixoloji və mənəvi-əxlaqi axtarışlar" mövzusunda filologiya üzrə fəlsəfə doktorluğu dissertasiyamı yazarkən M.F.Axundov adına Milli kitabxanada, Salman Mümtaz adına Ədəbiyyat və İncəsənət arxivində araşdırmalar apardım. Və tədqiqat zamanı əldə etdiyim nümunələr mənə bunu deməyə imkan verdi ki, "yox, Seyran Səxavətin qələmi heç zaman susmayıb, heç bircə gün də...

Sadəcə müəllif çap olunmaq arzusunda olmayıb. Nitsşenin gözəl bir deyimi var: "Susun ki, əsərləriniz danışsın". Bəlkə də, Seyran Səxavət özündən daha çox əsərlərinin danışması üçün o zaman susmaq mövqeyini seçib, həm də çox haqlı olaraq...

Bədii əsərin dili sənətkarın həyatı duymaq qabiliyyətidir, onun istedadıdır. Seyran Səxavətin əsərləri həm də dilinin gözəlliyi, canlılığı, şirinliyi ilə seçilir. Dilin sərrastlığı sənətkarın həyatı düzgün dərk etməsi deməkdir. Dilin gözəlliyi duyğuların gözəlliyi, həyatın poeziyası deməkdir. Ədəbi dil xalq dilinə nə qədər yaxın olarsa, əsərin poetik təsiri, ifadə tərzi də bir o qədər güclü olar. Bir məqamı mütləq qeyd etmək lazım gəlir ki, bəzi dilçi alimlərimizin söylədiklərinə rəğmən bizim ana dilimiz ən dərin, ən fəlsəfi fikirləri belə dürüst ifadə etmək üçün hədsiz imkanlara malikdir. Bu mənada Seyran Səxavətin dili son dərəcə axıcılığı, ifadəliliyi, rəngarəngliyi, yumşaqlığı, şirinliyi, rəvanlığı və ələlxüsus xəlqiliyi ilə diqqəti çəkməkdədir.





İsmayıl Şıxlı, Abbas Zamanov, Bəxtiyar Vahabzadə, Yaşar Qarayev, Bəkir Nəbiyev, Pənah Xəlilov, Nadir Cabbarlı, Musa Yaqub, Ramiz Rövşən, Anar, Elçin, Tofiq Hüseynoğlu, Vaqif Sultanlı, Abdulla Abbasov, İfrat Əliyeva, Fəridə Səfiyeva, Almaz Əliqızı, Dilbər Zeynalova, Süræyya Sultanova, Hidayət Orucov, Tofiq Abdin, Vaqif Bəhmənli, Rəşad Məcid, Vaqif Yusifli, Mithət Abbasov, Hətəm Quliyev, Aqil Abbas, Sabir Rüstəmxanlı, Aynur Camal, İntiqam Mehdizadə, Sadıq Murtuzayev, Babək Aruslu, Mürşüd Məmmədli, Dədə Süleyman – Süleyman Abdullayev, Fuad Poladov, Flora Kərimova, Qubad İbadoğlu, İqbal Ağazadə, Ceyhun Musaoğlu, Etibar Cəbrayıloğlu, Umud Rəhimoğlu və başqaları öz çıxışlarında, məqalə, yaxud müsahibələrində Seyran Səxavətin yaradıcılığı ilə bağlı maraqlı fikirlər söyləmişlər.

Sabir Rüstəmxanlı: "Qarabağ danışıq dilini bütün koloriti, şirəsi, saflığı və rəngləri ilə Azərbaycan ədəbiyyatına ilk dəfə Seyran Səxavət gətirib".

Vaqif Bəhmənli: "Onun əsərlərinə Qarabağ elatının, bütün Azərbaycanın dadı-duzu, şirin yumoru, zəngin həyatı hopub. Seyran Səxavətin romanları acı həyat həqiqətlərini ustalıqla, bənzərsiz bir üslub və dillə oxucuya çatdırır".

Nadir Cabbarlı: “Seyran Səxavət olmasaydı, Azərbaycan ədəbiyyatı kəskin süjetli mövzular, koloritli epik qəhrəmanlarını itirərdi. Seyran Səxavət olmasaydı ədəbiyyatımız həyata, insan münasibətinə, müasirlərimizə təkrarsız, orijinal və həssas yazıçı baxışından məhrum olardı”. Bütün bunlar ədibin yaradıcılığının təkcə oxucular tərəfindən deyil, ədəbi-elmi ictimaiyyət tərəfindən də diqqət və yüksək maraqla qarşılandığından xəbər verir.

Əgər bədii əsəri oxuyan adam həm müəllifə, həm də bu əsəri oxuyan başqa adamlarla eyni hisləri keçirib ruhən bir-birinə qaynayıb qarışırsa, deməli, bu əsl sənət əsəridir. Belə əsəri oxuyan adama elə gəlir ki, burada yazılanların hamısı onun çoxdan demək istədikləridir. Əsl sənət əsəri həm oxucuyla müəllifin, həm də oxucuyla başqa oxucuların arasında bütün sədləri götürür. Əsl sənət əsərinin gücü məhz burada – insanı tənhalığından xilas edib başqalarına doğmalaşdırmağındadır.

Seyran Səxavətin ictimai həyatımızdakı rolu, böyük türk şairi Nazim Hikmətin təbirincə desək, havanın kurşun kimi ağır olduğu vaxtlarda həmişə haqqın və ədalətin yanında dayanması yazıçının xarakterini tamamlayan, indiki vaxtda nadir rast gəlinən insan mənzərəsidir. O, həyatı ilə əsərləri, düşüncəsi ilə əməlləri arasında düz mütənasiblik olan yazıçılardandır. Seyran Səxavət insanların hürr yaşamaq haqqını yalnız kitablarda, əsərlərdə deyil, gerçək həyatda da daima müdafiə etmişdir. Yazıçının əsərləri yüksək intellektual səviyyəsi, ictimai haqsızlıq və ədalətsizliklərə qarşı barışmaz ruhu, mübarizliyi ilə seçilir.

Zamanını, vaxtını, sözünü dəyərləndirməyi bacaran Seyran Səxavət yaşadığı ömrü çox şərəflə dəyərləndirir. O, tutduğu yoldan, əqidəsindən, məsləyindən böyük Sabir kimi bir an belə dönmədən Haqqın səsini duyuraraq Haqq yolunu, “düzü düz, əyrini əyri” göstərmək yolunu tutub. Öz təmiz adının ucalığını qorumaq nə qədər çətin olsa da, Seyran Səxavət bunu bacarıb,





həm də kişi kimi bacarıb... Müsahibələrinin birində o, qeyd edir ki, adına ziyalı deyilən adamın yaltaqlığı daha çox eybəcər olur. Əsl ziyalını sındırmaq, tutduğu və getdiyi haqq yolundan döndərmək olmaz. Seyran Səxavət belə yazarlarımızdan, sözün tam mənasında əsl ziyalılarımızdandır. O ziyalılarımızdan ki, bizi aşınmağa, ruhumuzu çirkləndirməyə, mənəviyyatımızı karroziyaya uğramağa qoymur.

Söz adamının, sözün missiyası insanın daxili aləmini müsbətə doğru dəyişdirmək, onu daha kamil, üstün mərtəbəyə qaldırmaqdır. Seyran Səxavət də sələflərinin başladığı bu işin öhdəsindən sözün həqiqi mənasında şərəflə gəlmişdir.

**Xəyalə Zərrabqızı,**
*filologiya üzrə fəlsəfə doktoru*

## Görkəmli şəxsiyyətlər
## Seyran Səxavət haqqında

Seyran Səvaxətin 70 yaşı 40 il əvvəl olub əslində. O elə əvvəldən də müdrik, ağsaqqal biri idi. Öz üslubu, dəsti-xətti olan yazıçıdır Seyran. Həm də vurub-tutan biri idi, elə indi də elədir. Onun əsərlərindəki kolorit Azərbaycan ədəbiyyatında İsa Məlikzadədə, Sabir Əhmədlidə də var. Seyran Səxavət isə qeyri-adi yazıçıdır. Onun Qədir Rüstəmovdan aldığı müsahibə şedevrdir, qeyri-adidir. Seyranın əsərlərində dil, dialoq tamam fərqlidir, özünə-məxsusdur. "Nekroloq", "Yəhudi əlifbası", "Daş evlər" romanları hadisədir. Qarabağ yazıçıları içində ən qeyri-adi yazıçıdır Seyran Səxavət.

**Aqil Abbas,**
*Millət vəkili, Əməkdar jurnalist, yazıçı*

***

Seyran Səxavət mənim üçün görkəmli yazıçı, Azərbaycan ictimai fikrinin formalaşmasında rolu olan bir ziyalıdır. Seyranın əsərləri Azərbaycan reallığının bir çox sahələrini əhatə etdiyi üçün oxucular tərəfindən həmişə rəğbətlə qarşılanır. Azərbaycanın ədəbiyyat sahəsindəki görkəmli sənətkarları da Seyranın ədəbi yaradıcılığını yüksək qiymətləndirirlər. Seyran həm də fəal ictimai xadimdir. Gündəlik mətbuatda, televiziyada müxtəlif mövzularda onun çıxışları, müsahibələri həmişə öz aktuallığı, ciddiliyi və orijinallığı ilə fərqlənir. Onun dili sadə olsa da, çox güclüdür, səmimidir. Yalandan, pafosdan uzaqdır. Bütün bunlar xalq arasında Seyrana böyük inam qazandırmışdır.

**Mithət Abbasov,**
*Akademik*





***

Seyran Səxavəti 60 ilə yaxındır ki, tanıyıram. Yəni uşaqlıdan dostluq edirik. Allah qoysa, yenə də edəcəyik. Görünür dünyaya baxışımızda, ruhumuzda yaxınlıq var. Ancaq bu təkrar deyil. Ümumiyyətlə, təkrar mümkün deyil. Yəqin biz bir-birimizi müəyyən mövqelərdə, fikirlərdə tamamlayırıq. Çox şükürlər olsun ki, Seyran bu 60 il ərzində çox çılğın, dəcəl, hər şeyə həvəs göstərməsi ilə yanaşı, həm də hər şeyə və hər hadisəyə öz fikri, öz münasibəti olan ciddi bir şəxsiyyətdir. Seyran xalqını, vətənini və ümumiyyətlə, insanları sevən və bu məhəbbət yolunda çox böyük əzablar çəkmiş insandır. O, yaradıcılığın böyük təntənələrini də görüb. Arzu edirəm ki, o, biz dostlarını və oxucularını yeni uğur-ları ilə bundan sonra da sevindirsin.

**Hətəm Quliyev,**
*Akademik*

***

Seyran Səxavətin əsərlərində təsvir, demək olar ki, yoxdur. Əvəzində canlı söhbət, dialoqlardan doğan vəziyyət və vəziyyətlərdən doğan hərəkət aparıcıdır. Buna görə də, təəccüb edirəm, nəyə görə Seyran yalnız bir əsərlə dramaturgiyadan əl çəkdi? Onun əsərlərində canlı söhbət təsviri əvəz edir. Yazıçı özü danışmır, obrazlarını danışdırır. Dialoqlar nəyisə sübut, nəyisə inkar etmək məqsədini güdmür, yalnız göstərir.

***

Seyran Səxavətin əsərlərini oxumuşam və onun qələminin qüdrətinə, əsərlərinin hər baxımdan orijinallığına, toxunduğu problemlərin yeniliyinə, xüsusən də, heç kəsi təkrar etməyən yumoruna heyran olmuşam.

**Bəxtiyar Vahabzadə,**
*Xalq şairi*

***

Seyran Səxavət şeirində də, nəsrində də, dramaturgiyasında da sözün yaxşı mənasında konkretdir – elə həyatda da...

**Qabil,**
*Xalq şairi*

***

Mən Seyran Səxavətin bu povestini birnəfəsə oxumuşam, povestin səhnə versiyasına – "Qızıl teşt" faciəsinə isə iki dəfə baxmışam. Hər iki dəfə də camaatın nəfəsini dərmədən, səhnədən deyilən sözləri dinlədiyinin şahidi olmuşam. Xanəhmədin qılıncdan kəskin atmacalarından sonra uzun müddət davam edən alqışları eşitmişəm. Sözün düzü, xeyli vaxtdı belə səmimiyyətlə qarşılanan tamaşaya baxmamışdım. İlk dəfə idi ki, belə müşahidəm olurdu – tamaşada ayaq üstə qalxıb yarım saata qədər səhnədəkiləri alqışlayan adamların sevincini unuda bilmirəm. Onu da unuda bilmirəm ki, gözləmədiyi halda gül-çiçək dənizi içində itən rejissor sakit-sakit ağlayırdı, müəllif isə toxtaq idi... Ümumiyyətlə, demək istəyirəm ki, həm povest, həm də pyes kimi "Qızıl teşt" əsəri sübut etdi ki, vaxtında yazılmış, cəsarətli əsərlərə həmişə böyük ehtiyacımız var.

**İsmayıl Şıxlı,**
*Xalq yazıçısı*

***

Bir var əsərdə bir adamın, bir ailənin faciəsini təsvir edəsən – bunun özü mühüm məsələdir. Biri də var ki, bütöv bir epoxanın, xalqın, millətin taleyini, yaşantılarını, əzablarını, faciəsini canlandırasan – bu, böyük ədəbiyyat işidir. Ədəbiyyata şair kimi gəlmiş, yazıçı kimi şöhrətlənmiş, sadə geyimli, ağ köynəkli, mərd, təvazökar, türk sifətli Seyran Səxavət bu işin öhdəsindən şərəflə gəlib. Gəlin, fəxrlə etiraf edək ki, rüşvətxorluğun, eybəcərliyin bu dərəcədə ifşasını ədəbiyyatımız ilk dəfə görür. Seyran





Səxavət vətəndaş yanğılı bir sənətkardır. Cəsurluğu həyatı gözəl bilməsindən, eybəcərliyə dözməməsindən, təslim və fərari olanlara nifrət bəsləməsindən irəli gəlir. Xoşbəxt qullar azadlığın ən amansız düşmənidir. Cəmiyyətin bir sıra təbəqələrini firavan və xoşbəxt qul səviyyəsinə endirən səbəblər yazıçını dərindən düşündürmüş və sarsıtmışdır. Əsər belə bir sarsıdıcı ağrıdan qidalanıb. Ürək ağrısı olmayan bədii əsər bizə gərək deyil! "Qızıl teşt"in ürək ağrısı həyat həqiqətlərinə vurğunluqdan, kəsafəti (çirkinliyi – red.) darmadağın etmək əzmindən yaranmışdır.

**Xəlil Rza Ulutürk,**
*Xalq şairi*

***

Seyran Səxavət mənim gənclik dostum olmaqla bərabər öz yerində möhkəm dayanan qüdrətli bir yazıçıdır. Onun hər bir hekayəsində böyük romanların siqləti (ağırlığı – red.), qüdrəti, hər bir əsərin də özünəməxsus dili və üslubu var. Qarabağ danışıq dilini bütün koloriti, codluğu, şirəsi, saflığı və rəngləri ilə Azərbaycan nəsrinə ilk dəfə Seyran Səxavət gətirib. Seyran Səxavət Sözün estetik hakimiyyətində Vicdanın prezidentidir.

**Sabir Rüstəmxanlı,**
*Millət vəkili, Xalq şairi*

***

Seyran müəllimi oxumaq, dərk eləmək üçün yaradıcılığına dərindən bələd olmaq lazımdır. İnsanın daxili aləmində gedən təbəddülatları (dəyişiklikləri – red.), insanı insan edən keyfiyyətləri, cəmiyyətdəki mövqeləşməni, yaxşını pisdən ayırmağı onun əsərlərində görə bilərik.

Seyran Səxavəti bizə sevdirən onun əsərlərindəki həyat, insan və sevgisidir. Seyran Səxavət Azərbaycan nəsrinin ən gözəl yaradıcılarından biridir. Ədəbiyyata 1962-ci ildə gəlib. Onun tərcüməyi-halı ilə tanış olanda şeirlərinin də nəsri qədər gözəl ol-

duğunu görürük. Seyran Səxavət çox duyumlu adamdır, insanı ilk baxışdan tanıma qabiliyyətinə malikdir. O təkcə duymur, həm də hər şeyi görür və hiss edir. Mən bunu onun "Yəhudi əlifbası", "Qızıl teşt", "Qaçhaqaç" əsərlərinə əsaslanıb deyirəm.

Mən özümü Seyran Səxavətin əsərlərində tapıram. O xoşbəxt adamdır, ədəbiyyata şeirlə gəldi, gördü ki, misralara sığışa bilmir, sonra nəsrdə özünə geniş meydan tapdı. Onun nəsri axıcı, təkrarolunmazdır.

**İfrat Əliyeva,**
*Professor*

***

Mən Seyranla 1963-cü ildən tanış olmuşam. Artıq 52-ci ildir ki, Seyranla bir yerdəyik. Bu taleyin işidir ki, həyatımızdan çox dostlar gəldi getdi, yaxınlar, uzaqlar oldu, amma Allahın lütfüdür ki, bu qədər müddət ərzində Seyranla bir dəfə də sözümüz çəp gəlmədi, münasibətimiz pozulmadı. 50 il bundan əvvəl bir-birimizə necə səmimi idiksə, o səmimiyyət bu gün də qalır. Seyranı mənə və hamıya sevdirən xüsusiyyəti həm insan, həm də yazıçı kimi səmimiyyətidir. Seyran heç vaxt nə yazısında, nə davranışında saxtalıq etməyib. Mənə elə gəlir ki, bu onun ən böyük məziyyətidir. 50 il ərzində nələr, kimlər dəyişdi, amma Seyran dəyişmədi.

**Cəlil Nağıyev,**
*Filologiya elmləri doktoru, professor*

***

Seyran Səxavət heç vaxt konyukturaya getməyib. Zamanın, zəmanənin necə dəyişməsindən, nəyin aktuallaşmasından asılı olmayaraq hər zaman öz inandığı, bildiyi həqiqəti yazıb.

**Nizaməddin Şəmsizadə,**
*Filologiya elmləri doktoru, professor*





***

Seyranın nəsr dili o qədər axıcıdır ki, bəzən adama elə gəlir ki, şeir oxuyursan. Seyran Səxavət nəsrə poeziyadan gəlmiş və nəsri poeziya səviyyəsinə qaldırmış qüdrətli yazıçılardandır. O, illər boyu böyük sözün belindən gəldiyinə görə onun ləyaqətini və namusunu şəxsi ləyaqət və namusu kimi qorumuşdur. O, sözün fiziki əzabını çəkən və bu əzaba müqəddəslik donunu geyindirməyi bacaran sənətkardır.

***

Seyran Səxavət bir yazıçı kimi yüzilliyin problemlərini, dərdlərini və nəhayət, 90-cı illərin itkilərini, Qarabağ dərdlərini, insanda insani başlanğıcın zədələdiyi və deformasiyaya uğradığı vaxtlarda insanı özünə qaytaran və onun təkrarsız fenomenliyini sübut edən söz ustadıdır.

Seyran Səxavət "Nekroloq" romanı, "İt intervüsü", "Cəhənnəm" hekayələri ilə sübut etdi ki, o çağdaş dünyanın istənilən yazıçısı ilə rəqabət apara bilər. Seyran Səxavət xarakter adamıdır. 30 ildən artıq bir müddətdə mən onun sındığını, əyildiyini, nəyəsə görə qələmə sarıldığını görməmişəm. Onun boyu da sözü kimi ucadır. Mən bənzərsiz söz ustasına, dostum və qardaşıma can sağlığı, çöhrəsinə təbəssüm, gözlərinə əlavə işıq, qələminə ildırım kəsəri arzulayıram. Onunla bir dövrdə yaşadığıma görə qürur duyuram.

**Mürşüd Məmmədli,**
*Filologiya elmləri doktoru, professor*

***

Seyran Səxavət bizim ədəbi nəsildə zamana yaxa verməyən birinci oğuldur. Zamandan asılı olmayaraq Seyran Səxavət həmişə bir sifətdə, bir namusda, bir qeyrətdə olan yazıçıdır!

**Ramiz Rövşən,**
*Xalq şairi*

***

